

*Tamerlan RÜSTƏMBƏYLİ*

# Kövrək Dəmirçi

**Hekayə**

Bir neçə saniyə ayaq saxlayıb dayandım. Yetmiş il əvvəl çiy kərpiclə tikilmiş, çox da böyük olmayan dəmirçi evinə nəzər saldım. Kirəmitləri dəlib ucalan iki bacanın biri qara tüstü üfürürdü. Yaxınlaşıb taxtaları bir-birinə seyrək vurulmuş sallaq qapını açarkən əvvəlki kimi cırıltı səsi gəldi. Həmid dayı içəridə idi, getdikcə daha da qızışmaqda olan ocağa kömür atırdı.

- Hə, gəlmisən?
- Gəlmişəm.
- Bu, elə-belə sual idi atam, - o zarafat edərkən də səs tonu heç dəyişmirdi.
- Siz keçən dəfə atanızla dağa getdiyiniz ilk günü danışacaqdız. Fikrinizi dəyişdiyinizi deməyin, söz vermişdiz, - təbəssümlə dedim.
- Hə, bilirəm, o günü, o faciəvi gecəni, - deyib ocağa baxdı. Elə bil nəyisə xatırlamağa çalışır, alovun dilində hansısa qorxulu hadisəyə tamaşa edirdi. Qıpqırmızı yanan kömürün işığı onun gözlərində əks olunurdu. Həmid dayı mənim yaşda birinə bu cümlələri rahatlıqla deyirdi, çünki o gün haqqında qəsəbəmizdə hərkəs bilirdi, yəni mənə heç kimin bilmədiyi hansısa hadisəni danışmayacaqdı, - o gündən bir həftə əvvəl 13 yaşıma girmişdim. Atam bir gün söz vermişdi ki, on üç yaşımdan sonra məni özü ilə dağa aparacaq. Onun o dağda, - əlini maşaqarışıq qaldırıb arxa tərəfi, durduğumuz sexdən 500 m aralıdakı, çayın diyər tərəfindəki dağı işarə etdi, - iki bağı vardı. O vaxtlar, adamlar belə tənbəl deyildilər. İndi hərə öz bağında, bostanında işləməyə vaxt tapmır guya. Mənim atam gedib dağı da bağ etmişdi. O bağlardan birində atamla qardaşı, əmim ağacdan ev düzəltmişdilər. Döşəməsi də taxtadan olan evdə çarpayısı, qab-qacağı, şkafı, masası, hərşeyi vardı. Kiçik, şüşəli pəncərənin ikisinə də dəmir setka vurulmuşdu. Sonralar özüm o evə çox getsəm də atam kimi günlərlə gecələmirdim. O gedib bəzən üç, bəzən beş, bəzən bir həftə orada qalırdı.Anam isə artıq buna alışmış, onun təbiətdən ayrıla bilməyəcəyini, torpaq adamı olduğunu başa düşmüşdü. Heç nə demədən, günü gəldiyində atamın ərzaq çantasını hazırlayıb qoyardı.

Atam uzunboy, enlikürək, pəhləvan kimi bir kişi idi. Yol gedərkən yanında ikinci bir adam üçün yer qalmırdı. İri pençəyinin altında beş uşaq birdən gizlənə bilərdi. Siqaret çəkərkən adama elə gəlirdi ki, qalın bığlarının arasından çıxan tüstü heçvaxt bitməyəcək, - Həmid dayı atasının iri cüssəli, əzəmətli olduğunu istədiyi kimi izah edə bilmir, bu onu, özünə günahkar hiss etdirirdi. Heç olmazsa atası üçün bunu bacarmağa çalışırdı, - Bir qoşalülə ingilis tüfəngi vardı. Mənə demişdi ki, o tüfəngi bir maşın oduna dəyişib.

Keçmişdə bu təzə evlər tikilməzdən əvvəl, - yenə əli ilə dağ tərəfi göstərdi, - hər axşam çayın kənarına çaqqal sürüsü düşürdü.Onlar elə qışqırırdılar ki, elə bil, kiməsə benzin töküb yandırırdılar. Atam isə bəzən səsə dözməyənlərin xahişinə çay kənarına gedir, bir neçə əl atəş açır, yanlız bundan sonra sükut çökürdü. Amma, çaqqallar, tək-tük canavarlar hər gün, acıq edirmiş kimi, dağın ətəyinə enirdi. Hələ atamın dağda vurduğu canavarların, çaqqalların sayı-hesabı yox idi, - Həmid dayı qalın maşa ilə kömürlərin arasındakı qızarmış metalı götürüb dəmir masanın üzərinə qoydu. Ağır çəkici alarkən çılpaq qolundakı bütün əzələlər yerindən oynadı. Hər çəkic zərbəsində alnından muncuq-muncuq tər damcıları tökülür, üzünün əti silkələnirdi. 55 yaşlı Həmid dayı kök və bəlkə də atası qədər uzun idi. Biləklərinə, əllərinə doladığı parçalar, üzərinə asdığı dəri döşlük tamamiylə hislə çirklənmişdi, - Bizim bir itimiz də vardı. Adı Tigr idi. Atam onu hansısa türk çobandan, hələ balaca ikən almışdı. Qanqal balası idi. Qanqal itləri xüsusi olaraq yetişir, onlar canavarların qorxduğu yeganə canlılardır. Hündürlüyü yetmiş yeddi santimetr, ağırlığı isə əlli kilogram olan Tigr da o cür, növünə uyğun böyümüşdü. Oturduğu yerdən hər şeyə görə ayağa qalxmazdı, hürərkən səsi hər yerdən eşidilərdi. Sanki onda qəribə bir böyüklük də vardı. Ağ Tigr gəzərkən kürəyində, qıçlarında əzələləri qabarırdı. Hələ bütün dağı-daşı əzbər bilirdi. Cavan, ən döyüşkən vaxtı idi, boynundakı tikanlı tasma onu daha qorxulu, vahiməli göstərirdi, - deyib divardan asılmış paslı tasmaya baxdı. - İtlərin ən zəif yeri boğazları olur. Bax bu tikanlı tasmalar onun üçün taxılır ki, boğuşarkən boğazları canavarın güclü çənəsinə keçə bilməsin. Bu zaman döyüş ədalətli olur.

Atam deyirdi ki, Tigr onu dəfələrlə xilas edib. Neçə dəfə bədənində diş izi ilə, yaralı dağdan qayıdıblar.

O gün xeyli qar yağmışdı. Mən tezdən, saat 7-də qalxdım. Cığırda yanlız Tigrın ayaq izləri vardı. Atam uzun, tüklü paltosunu, dizdən çəkmələrini geyindi. Onun qolçaqlarında və çəkmələrində də qısa dəmir tikanlar vardı. Axşamdan təmizlədiyi tüfəngini götürdü və mərmi kəməri ilə belindən asdı. Tigrın dırnaqlarını, dişlərini gözdən keçirdi, tasmasının tikanlarını, bağlanan yerini yoxladı. Belə ciddi hazırlığı görüb azacıq qorxmuşdum. Tigr sanki işinin artdığını başa düşmüşdü, bugün daha ciddi idi. O indi tək atama görə ayıq olmalı deyildi, həm də məni qorumalı idi.

Biz qarı yara-yara dağa qalxarkən atamdan niyə başqa vaxt gəlməyəcəyimizi soruşdum. Bu işin bu cur ağır olduğunu bilmirdim. Mənə "sən deyildin həvəslə bugünü gözləyən? İlk dəfə çətin gələ bilər. Amma bu, mənim üçün əsl həyatdır. Öyrəşəcəksən oğlum" demişdi. Çox əziyyət çəksəm də, atama dağa getmək üçün yalvardığım zamanları xatırlayıb susurdum, arada heyvan səsləri gəlirdi, nə qədər olmasa da qorxurdum, bildirmirdim.

Gün qısa idi, saatlar keçir, hava tez qaralırdı. İki gün keçdi, üçüncü gün, sonuncu gecə gəlib çatdı. Heç vaxt belə hündür yerdən ulduzlara baxmamışdım. Elə bil onlara daha yaxın idim. Gecə vaxtı uzaqdan və hündürdən qəsəbəmizə baxdım. Təktük yerdə işıq yanırdı.

İsti evciyin tavanından, küncdən lampa asılmışdı. Atam, palçıqdan hazırlanmış şöminəni qarışdırırdı.Tigr sakitcə, mənalı şəkildə atəşə baxırdı. Birşey eşitmişdim, diqqətlə baxarkən itlərin gözlərində qəribə bir müdriklik görünürmüş. Hürərkən səsi hər yana yayılan, hamını qorxuya salan bu it indi elə oturmuşdu ki, sanki şüuru vardı, dərin fikirlərə getmişdi. Gözlərini atəşdən ayırmadan, ağzını açmadan boğazından əsl, pələnglərə xas mırıltı səsi gəldi. Atam yavaşca başını çebirib ona baxdı. Onlar bir-birlərinə nəsə deyirmiş kimi qaş-qabaqla baxışdılar

- Heç vaxt belə səssizlik olmamışdı, - uzun sükutdan sonra atam dilləndi, qalxıb pəncərədən qaranlıq, qarlı meşəyə baxdı. Sonra yavaşca kobud çarpayıya oturdu. Onun gözlərində hiddət və vahimə görünürdü. "Axı niyə bugün?!" qəzəb və biraz da kədərlə pıçıldadı. "Boran atası" ləqəbli, dağ-dərəyə qorxu salan bu əzəmətli insan bəlkə də ömründə ilk dəfə idi ki, onurğasında insani bir qorxunun hənirtisini hiss edirdi. Ayağa qalxıb pəncərədən baxdım. Uzaqlarda, qaranlığın içində gözlər parlayırdı. Qar ay işığını əks etdirir, ağacların altında ətraf azacıq aydınlanırdı. Atama tərəf çevriləndə o artıq paltosunu geyinib tüfəngini götürmüşdü. Mənə:

- Qapını yaxşı-yaxşı bağla və nə olur-olsun açma. Eşitdin? Pəncərəyə də yaxınlaşma, - dedi.

Susdum. Nə baş verdiyini anlamırdım. Anlasaydım "getmə" deyərdim, tutub saxlayardım. Amma o bilirdi ki, bayırda gözləyənlər hesablaşmamış getməyəcəklər.

Onlar qisas arzusu ilə, illərin qəzəbini yığıb gəlmişdilər. Ya onlar gələcəkdi, ya da atam gedəcəkdi.

-Eşitdin?-qəzəbli səs məni fikirdən ayırdı. Başımı yelləyərək "hə" dedim. Atam çıxan kimi qalın ağac qapını yuxarıdan və aşağıdan bağlayıb pəncərəyə qaçdım. Alaqaranlıqda parlaq gözlərin hərəkət etdiyini, yaxınlaşdığını gördüm.

Atəş səsi gəli, canavarlardan biri donmuş qarın üzərində birneçə dəfə fırlanıb dayandı. Atam yerini dəyişərək evdən uzalaşıb aralıdakı qalın ağaca yaxınlaşdı. Yenə atəş açdı və daha bir cüt gözün parıltısı söndü. Onlar hər tərəfdə idilər və səssizcə dairə yaradırdılar. O, əlini mərmi kəmərinə apardı. Canavarlardan birisi bu anı gözləyirmiş kimi hücuma keçdi, amma atam gözünü tüfəngdən çəkib ona baxmırdı. Canavar uzaqdan at kimi şahə qalxıb atamın üstünə atıldı. Mən "Ata" deyib qışqırmaq istəyəndə Tigrın səsi bütün səsləri batırdı. Canavar havada istiqamət dəyişib ağaca çırpıldı və hərəkətsiz bədəni yerə düşdü. Daha 4-5 cüt lampa kimi yanan göz yaxınlaşmağa başladı. Tigr qəzəbli səslə ən öndəkinin üstünə şığıdı. Onlar birlikdə yuvarlanaraq dərəyə düşdülər, daha bir canavar da onların arxasınca qaçdı. Atam isə qalan üçünün ikisini dəqiqlikdə vura bildi. Biri isə hələ tüfəngin lüləsindən çıxan tüstü dağılmamış irəli atıldı. Bu zaman atamın əlində heç vaxt görmədiyim uzun bir pıçaq peyda oldu və bu pıçaq canavarın ön iki qıçını bədənindən ayırdı. Ürəyim qorxudan ağzıma gəlir, sinəmi yarıb azad olmaq istəyir, çırpınırdı. Vahimədən ağlaya bilmirdib, amma gözümdən yaş axırdı. Atamın nərəsini eşidib gözlərimi sildim və çölə baxdım. Canavarlardan birisi onun sağ qolundan yapışmışdı. O, yerdə idi, heyvanın çənəsini atamın üzündən bu qol ayırırdı. İkinci nərədən sonra Tigr göründü, pələng kimi şığıyaraq canavarın boğazından tutub atamın üstündən aldı. Bir qədər qəzəblə silkələdikdən sonra kənara atdı və axsayaraq sahibinin yanına qayıtdı, öz ətrafında dönərək iki dəfə hürdü. Amma sürü çəkilmək istəmirdi. Canavar can verərkən belə qisas haqqında düşünən yeganə heyvandır. Parlaq gözlər iri bir dövrə yaratmışdılar. Və budur, bir neçəsi daha hücuma keçdi. Bunu görüb evin döşəməsinə çökdüm, bədənim əsirdi. Yavaş-yavaş özümdən gedirdim. Elə sonuncu dəfə Atamın "Ya Allah" deyə nərə çəkişini, ardınca da Tigrın bütün dağda əks səda verən səsini eşitdim

Gözlərimi açanda anamın qara şalın içindən kədərli üzünü, divar boyu oturan başqa adamları gördüm. Həmin gecə, səhərə yaxın yenə güclü qar yağmışdı.

Atamı babamın yanında, Tigırı isə həyətimizdəki tut ağacının yanında dəfn etdilər.

Sonralar anam dedi ki, qarın altından 11 canavar ölüsü tapıblar. Dördü güllə, ikisi pıcaqla öldürülmüşdü. Qalanları da Tigrın payına düşürdü.

O gecə atam qorxmuşdu, o gün başa düşməmişdim, amma sonra anladım: o qorxunun yeganə mənbəyi mən idim, - Həmid dayı getdikcə gücsüsləşən, titrək səsini kəsib qızarmış balta ağızlığına bənzəyən metalı odun içindən götürdü və dəmir sütunun üstünə qoydu. Heç nə demədən çıxdım, mən onun danışdıqlarını düşünərək uzaqlaşırdım. Mən uzaqlaşdıqca çəkic səsləri də zəifləyirdi.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mət
"AZƏRBAYCAN" n
Telefon: 538-05-50, 538-51-31.
adaletqeze
adaletqezeti@mail.r
Qəzetdə "Olaylar" və APA İA-n